# 07.12.2024 tarixli AzXP namizədlərinin toplantı protokolu

**İclasa Abid Qafarov sədrlik etdi və aşağıdakı qərarlar verildi:**

1. Toplantının reqlamenti qəbul edildi – Abid Qafarov
2. Reklam və təbliğat, Facebookda AzXP səhifəsinin yaranması və qoyulmuş reklam:
   - 2.1. Namizədlər video çəkib Abid Qafarova göndərir, reklamın ərazisi və məbləğini təmin edir.
   - 2.2. TikTok platformasında azərbaycan üçün hesab açılsın
3. Seçicilərin seçki prosesinə cəlb olunması - Əli Quliyev
   - 3.1. Kanallardan konkret dairələrə və bölgələrə müraciətlər etmək
   - 3.2. 1-2 dəqiqəlik video müraciətlərin çəkilib paylanması
   - 3.3. Fərdi müraciətlər edilsin, şəxsən, vatsapla, zənglə və üzbəüz.
   - 3.4. Qohum və qonşuları indidən seçkilər barədə maarifləndirmək
   - 3.5. Yerli kanallara çıxıb oradan regionlara müraciətlər etmək.
   - 3.6. Bir ailədə bir telefon var. Kəndlərdə smartfon yoxdur. Bu boşluğu kağız imza ilə doldurmaq olarmı? – Seçki Komissiyası
   - 3.7. Video roliklərin YouTube kanallarında yayımlanması.
   - 3.8. Məxsusi olaraq, qadın namizədlər üçün təbliğat şəraitinin yaradılması
   - 3.9. Bu toplantının bəzi görüntüləri reklam və təbliğat məqsədi ilə kiçik həcmli video şəklində paylaşılması – Qurban Məmmədov
4. Namizədlərə Nizamnamə və Bəyannamə ilə tanış olmaq barədə tövsiyyələr – Əlövsət Sadıqlı
   - 4.1. Namizədlər Nizamnaməni, Məramnaməni və Bəyannaməni oxumalı və oradakı tezislər üzərindən çıxışlarını formalaşdırsın.
5. Meydan TV, Rüfət Səfərov və Tural Sadıqlıya qarşı təqiblər – Qurban Məmmədov
   - 5.1. Ölkədə həyata keçirilən repressiyalar barədə müraciət və bəyanatın hazırlanması və ictimailəşdirilməsi – Qurban Məmmədov və Ataxan Əbilov
   - 5.2. Kanallarda repressiya məsələsi qabardılsın və şərlənərək həbs olunanlara dəstək ifadə olunsun – YouTube kanalları və namizədlər
   - 5.3. Gürcüstanda cərəyan edən “Xalq Hərəkatı” barədə AzXP Təsisçiləri və Namizədləri adından Bəyanatın hazırlanması – Təşəbbüs Qrupu

6. Nizamnaməyə əlavələrin olunması – Bu məsələ yalnız Təsisçilərin səlahiyyətində olduğu üçün onlarla müzakirə oluna bilər.